AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

M.F.AXUNDOV adına
AZƏRBAYCAN MİLLİ KİTABXANASI



# TARİXİN DAŞ YADDAŞI

BAKI – 2009

**AZƏRBAYCAN RESPUBLİKASI**
**MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**M.F.AXUNDOV adına**
**AZƏRBAYCAN MİLLİ KİTABXANASI**

# TARİXİN DAŞ YADDAŞI

**Respublikanın kütləvi, uşaq, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün** metodik vəsait

Mədəniyyət və Turizm Nazirliyi
nəzdində Koordinasiya Şurasının
2009-ci il … tarixli
… nömrəli protokolu ilə
çapa tövsiyə olunub.

**BAKI – 2009**

*Tərtibçi:* **Э.Səfərəliyeva**

*Redaktor:* **K.Tahirov**

**Tarixin daş yaddaşı: Metodik vəsait / Tərtibçi G.Səfərəliyeva; Red.: K.Tahirov; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- B.: 2009.- 67 S.**

**© M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2009**

## Görkəmli şəxsiyyətlər tarixi və mədəniyyət abidələri haqqında

Bakı şəhərinin memarlıq abidələri artıq bizim milli mədəniyyətimizin və tariximizin rəmzlərinə çevrilmişdir.

**Heydər Əliyev,**
**Azərbaycan xalqının ümummilli lideri**

Azərbaycan memarlıq sənətinin bir çox qiymətli nümunələri dünya memarlığının inciləri sırasına daxil olmuşdur.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Heç şübhəsiz, milli tariximiz əsrlər boyu dini əqidəmizlə, müqəddəslərə ehtiramla, əcdadlarımızın ərmağan qoyduğu maddi-mənəvi abidələrə qayğı və məhəbbətlə səciyyələnir.

**Mehriban Əliyeva,**
**Heydər Əliyev Fondunun prezidenti,**
**YUNESKO-nun xoşməramlı səfiri,**
**Milli Məclisin deputatı**

Dünyada bir mədəniyyət abidəsini yaratmaq nə qədər çətindirsə, bu abidənin sənin olduğunu sübut edərək və o abidəni tarix-tarix öz millətinin adına qorumaq ondan da çətindir.

**Nizami Cəfərov,**
**AMEA-nın müxbir üzvü,**
**Azərbaycanda Atatürk Mərkəzininin rəhbəri,**
**Milli Məclisin deputatı**

Nəhayət, dünya bilməlidir ki, “qədim erməni mədəniyyəti” deyilən bir anlayış kökündən uydurmadır və Qərbi Azərbaycan ərazisindən tapılıb dünya ictimaiyyətinə sırınan bütün yeraltı və yerüstü maddi mədəniyyət nümunələri əslində Azərbaycan xalqına məxsusdur….

**Vəli Əliyev,**
**AMEA-nın müxbir üzvü, professor,**
**tarix elmləri doktoru**

Yurdumuzun abidələri geniş oxucu auditoriyasına çatdırılmamışdır. Bu boşluqdan istifadə edənlər toponimləri dəyişdirmiş, tariximizi saxtalaşdırmağa, mədəni irsimizi özlərininkiləşdirməyə və dünya ictimaiyyətinə özlərininki kimi çatdırmağa çalışmışlar. Lakin onlar unutmuşlar ki, rəvayətlər susanda və əlyazmalar itəndə daşlar danışır.

**R.Bayramov,**
**memarlıq elmləri namizədi,**
**Azərbaycan Respublikası**
**Mədəniyyət və Turizm Nazirliyinin**
**şöbə müdiri**

Daş kitabələr, memarlıq abidələri, məzar daşları üzərində yaşadığımız torpağa, bizə vətəndaşlıq hüququ verən pasportlarımızdır.

*********

Tarixi abidələrin öyrənilməsi və təbliğ edilməsi gənc nəslin tərbiyəsində, onlara milli qürur, vətənsevərlik hissləri aşılamaq işində mühüm əhəmiyyətə malikdir.

**Məşədixanım Nemətova**
**AMEA-nın müxbir üzvü, tarix**
**elmləri doktoru**

Qədim abidələr xalqın tarixidir, onun varlığını və yaşamaq ləyaqətini sübut edən dəlildir.

*********

Necə olur ki, dilsiz daşlar bizi gah xoş duyğularla qanadlandırır, coşdurur, gah da ürəyimizdə üzüntü və ağrı doğurur?

**C.Qiyasi,**
**AMEA-nın müxbir üzvü,**
**Abidələrin Bərpası Elmi-Tədqiqat**
**Layihə Institutunun direktoru**

Ulu minilliklərin arxasında yaradılmış bu təsvirlər ibtidai incəsənət nümunələri olmaqla yanaşı, ulu əcdadlarımızın məişət və təsərrüfatını, mədəniyyət və dünyagörüşünü əks etdirən qiymətli tarixi mənbələrdir.

**Q.İsmayılov,**
**yazıçı-publisist**

Üstündə tarix, yazı, yaxud təsvir olan hər bir daş vaxtilə yaşamış canlı bir insanın, tarixin od və alovları içərisində bizim gözəl torpağımızı hifz edən… qurucu insanın daşlaşmış ürəyidir.

*********

Kim bilir neçədir dünyanın yaşı,
Tarixin nə qədər yazısı vardır,
Hər saxsı parçası, hər məzar daşı
Nəsildən nəsilə bir yadigardır.

**Səməd Vurğun,**
**Xalq şairi**

Alın yazısı, ömür kitabı kimi oxunan, dil açıb danışan yurddaşlarına qulaq asın, torpağımızın, tariximizin ürək döyüntülərini, ulu söhbətlərini dinləyin.

**S.Elcanlı,**
**yazıçı-publisist**

Abidələr gözəllik nümunəsi, əzəmət, qüdrət timsalı kimi bütün xalqlar tərəfindən eyni rəğbətlə qarşılanır.

*********

Abidələr əsrlərin, illərin ünvanıdır. Keçmişdən yadigar qalan daşlar, izlər, sözlər olmasaydı Babəki, Koroğlunu tanımazdıq, Nizamini, Füzulini, Nəsimini və onlarla dahilərimizi unudardıq.

*********

Abidələr ömrünü sürmüş sənətkarların əbədiyyətə qovuşmuş düşüncəsi, sözüdür.

**T.Haqverdiyev,**
**tarixçi-alim**

## Abidələr tariximizdir, bu günümüzdür, sabahımızdır

Abidələr bizim hisslərimizə təsir edən ən əyani, ən emosional bir vasitədir.

**F.Q.Köçərli**

Azərbaycan qədim tarixi-mədəniyyət abidələri ilə zəngin olan bir ölkədir. Əgər kitablar tarixin yazılı yaddaşıdırsa, abidələr tariximizin daş yaddaşıdır.

Tarixi-mədəniyyət abidələri dedikdə, biz nələri yada salırıq? Alimlər elmi araşdırmalar aparanda onları iki aspektdə öyrənirlər: Yeraltı tarixi abidələr və yerüstü abidələr. Yeraltı qədim abidələr dedikdə - mağaralar, kurqanlar, qəbirlər və s., yerüstü abidələr dedikdə isə - məişət tikililəri, qalalar, məscidlər, günbəzlər, körpülər və s. keçmişin yadigarları yada düşür.

Əgər yeraltı abidələrin tarixi eramızdan əvvəlki yüzilliklərə gedib çıxırsa, yerüstü abidələrin qızıl dövrü orta əsrlərə təsadüf edir. Azərbaycan mədəniyyəti, ədəbiyyatı, musiqisi həmçinin xalçaçılıq və dekorativ tətbiqi incəsənətin digər növləri orta əsrlərdə inkişaf edərək böyük dünyəvi əhəmiyyət kəsb etmişdir. Bu uğurları eyni zamanda Azərbaycanın qədim və əsasən orta əsr memarlarının yaratdıqları əvəzolunmaz, dünya memarlığında və şəhərsalmada özünəməxsus yer tutan abidələrimizə də aid etmək olar. Naxçıvandakı Möminə Xatun (1186), Qarabağlar (1162) və digər türbələr, Culfa yaxınlığındakı Gülüstan türbəsi (XIII əsr), Bərdə türbələri (1322), Bakıdakı Qız qalası, Bayıl qəsri, Şirvanşahlar sarayı (XV əsr), Alban dövrünə aid ləkid Kilsədağ məbədləri, Abşeronun müdafiə tikililəri, Şamaxı rayonunun Mirzə kəndindəki "Diri baba" abidəsi (1402),

Araz çayı üzərindəki Xudafərin körpüləri (XII əsr), Qazax rayonundakı Sınıq körpü (XII əsr), Şəki xan sarayı (XVIII əsr), Şuşa şəhərinin abidələri (XVIII əsr) və daha yüzlərcə adını çəkmədiyimiz tarix və mədəniyyət abidələri Azərbaycan xalqının şöhrətidir.

Mürəkkəb relyefli yer quruluşu, ərazisində çayların sıx şəbəkəsi Azərbaycanda çoxlu körpülər tikilməsinin ilk amilləridir. Ölkəmizin ərazisindən keçən ticarət yollarında da gediş-gəlişi təmin etmək üçün körpülərin salınması zəruri idi. Azərbaycanın istər Güney, istərsə də Qüzey bölgələrində qalan bir sıra körpülər nadir tarix və mədəniyyət abidələrindəndir.

XI-XII yüzilliklərin abidəsi olan Gəncə körpüləri, XII əsrin yadigarı Qırmızı körpü, XIII əsrə aid Mərənd-Culfa yolu üstündə Cuğa körpüsü, XI-XIII əsrlərin dəyərli abidəsi Ərdəbil körpüləri, XII əsrin ən məşhur tikilisi Qatlanlı qız körpüsü bu qəbildəndirlər.

Qazax rayonunun Xram çayı üzərindəki məşhur "Sınıq körpü" də XII əsrdə tikilmişdir. Aşırımlarından birinin eninin 20 metrə çatması, o zaman üçün belə bir körpünün yaradılması cəsarətli bir usta təşəbbüsü hesab edilməlidir.

Azərbaycanın bütün hökmdarları, istər Səlcuq sultanları, istərsə də Atabəylər hər şeydən əvvəl sərkərdə və hərbçi olduqlarından onlar başa düşürdülər ki, ölkədə dincliyi, əmin-amanlığı saxlamaq, karvan yollarının təhlükəsizliyini təmin etmək üçün qalaların olması vacibdir.

Tarixi qaynaqlarda tez-tez yada salınan Şamaxının Gülüstan qalasıdır. El arasında onu Qız qalası da adlandırırlar. Gülüstan qalası XII əsrdə köklü şəkildə yenidən qurulmuş və möhkəmləndirilmişdir.

Dağ qalaları içərisində Gədəbəyin  Qız qalası memarlıq nöqteyi-nəzərdən monumentallığı ilə diqqəti cəlb edir. Araşdırıcılar onu XII yüzilliyin – Eldəgizlər dövrünün əsəri sayırlar.

Yazılı qaynaqlarda X əsrdən başlayaraq rast gəldiyimiz Əlincə qalası müxtəlif hakim sülalələrinə qulluq göstərsə də, tarixdə daha çox Eldəgizlərin iqamətgahı və xəzinə yeri kimi tanınmışdır.

Qala tikililəri arasında Abşeron qalaları xüsusi yer tutur. XII yüzillikdə Abşeronun iri tarixi kəndlərinin çoxunda bu qala tikililərinin ya özləri, ya da uçuq izləri qalmışdır. Mərdəkan, Nardaran, Ramana, Şağan kimi qədim kəndlərdə indi də uca qəsrlərin izləri vardır. Bu qalalar içərisində bu günümüzə kimi gəlib çatmış Mərdəkandakı dairəvi qalanı göstərmək olar. XIII əsrdə tikilmiş bu qala təkcə müdafiə tikintisi deyil, eyni zamanda qiymətli bir sənət abidəsidir.

Bakının, eləcə də Abşeronun ən möhtəşəm, həm də sirli abidəsi Bakı Qız qalasıdır. Gözəlliyi, əzəməti, memarlıq baxımından ona tay abidə yoxdur. Tarixinin, yəni yaşının Şumerlər dövründən başlandığını iddia edənlər də var, XII əsrdə tikildiyini sübut etməyə çalışanlar da.

Bu saydıqlarımız Azərbaycanın ərazisində olan qalaların cüzi hissəsidir. XI-XIII əsrlərdə Azərbaycanda ucaldılan qalalar həm sayına, həm də möhtəşəm görünüşlərinə görə çox diqqətəlayiqdirlər.

Azərbaycanın tarixi-mədəniyyət abidələri arasında məscid və türbələrin rolu çox böyükdür. Tikilmə tarixi müxtəlif dövrləri əhatə edən bu abidələrin günümüzə qədər gəlib çatmış nümunələri indi də göz oxşayır.

İslam ölkələrində məscidlər təkcə ibadət üçün deyil, həm də insanların ünsiyyət məqsədilə yığışdıqları yer idi. Adı X yüzillikdən çəkilən Ərdəbil Came məscidi, Sınıq qala Məhəmməd məscidi (1723), Urmiya Came məscidi (Atabəylər dövrünə təsadüf edir), Kirnə məscidi (XII əsr), İçərişəhərdə Qız qalası ilə Sınıq qala abidələri arasında yerləşən Aşur məscidi (1169), Pirsaat xanəgahı (1074) tarix və mədəniyyət abidələrinin ən gözəl nümunələrindəndir.

Azərbaycan ərazisində indiyəcən qalan türbələrin tarixcə ən qədimi XI yüzilliyin II yarısına aiddir. Bu monumental tikililərin ən gözəl nümunəsi isə XII əsrin II və XIV əsrin I yarısında ucaldılmışdır. Xərrəqan türbələri (1063-1072), Qırmızı Günbəd türbəsi (1148), Gilan türbəsi (XII əsr), İmamzadə Vəli türbəsi (XII əsr), Yusif Küseyir oğlu türbəsi (1162), Dairəvi Günbəd türbəsi (1167), Üç Bənd türbəsi (1330), Şıxbabalı türbəsi (1272), Bərdə türbəsi (1322), Naxçıvanın Qarabağlar kəndində bu günə kimi qalan Qarabağlar türbəsi (XII-XIII əsr), bürc tipli Mirəli türbəsi (XIV əsr), Xocalı türbəsi (XIV əsr) Azərbaycan xalqının bu sahədə əldə etdiyi uğurların, yaratdığı əsərlərin ən yaddaqalan örnəklərindəndir.

Türbələrdən söhbət açdıqda Naxçıvanda yerləşən və bu günümüzə qədər qalan Möminə Xatun türbəsindən danışmamaq olmaz. 1186-cı ildə usta Əcəmi Əbubəkr tərəfindən tikilən bu türbə sənət inciləri arasında şah əsərdir. XIX əsrin əvvəllərində Naxçıvana gələn Fransa səyyahı Dübnagə Monner bu abidəni görəndə öz heyrətini gizlədə bilməmişdir. Professor M.V.Alpatov Möminə Xatun türbəsini "İnsanpərvərlik nəfəsi" adlandırmışdır. Bu, abidəyə verilən ən dolğun, düzgün qiymətdir. Əcəminin daşlara, kərpiclərə hopmuş hisslərini yalnız "insanpərvərlik nəfəsi" adlandırmaq olar.

Abidələrdən danışdıqda, Bakının qala divarları ilə əhatə olunan qədim hissəsi – İçərişəhəri xüsusi qeyd etmək lazımdır. Şəhərimizə gəzməyə gələn minlərlə insanı heyran qoyan İçərişəhər sözün əsl mənasında bir nağıldır. Hər daşı, kərpici tarix olan İçərişəhər qədim binaları, hamamları, məscidləri, karvansaraları və saymaqla bitməyən tikililəri ilə keçmişin bizə qoruyub saxladığı bir yadigardır.

1977-ci ildə Azərbaycan tarixi memarlıq qoruğu elan edilən İçərişəhər hal-hazırda YUNESKO-nun himayəsi altındadır.

İçərişəhərin möcüzəsi isə Şirvanşahlar Sarayı kompleksidir. Şirvanşahlar sarayı XV əsrin və ümumiyyətlə, Orta əsr Azərbaycan memarlığının ən görkəmli abidəsidir. Şirvanşahlar

sarayı bir sıra binalardan ibarət kompleksdir. Buraya saray binasından başqa, şərti olaraq divanxana adlanan bina, Şirvanşahların türbəsi, Şah məscidi, ovdan, hamam, Seyid Yəhya Bakuvinin türbəsi hesab edilən tikinti və Şərq darvazasını təşkil edən portal daxildir. Bu saray kompleksinə daxil olanda elə bil bir sirli aləmə daxil olursan, özünü tarixin qoynunda hiss edirsən. Xalqımızın belə bir əzəmətli, möhtəşəm abidəsinin olması ilə fəxr edir, qürur hissi keçirirsən.

XVIII əsrdə tikilən xan sarayları içərisində ən qiymətlisi Şəki xanlarının sarayıdır. Sarayın 1796-cı ildə və yaxud bir qədər əvvəl tikildiyi fərz edilir. Şəki xan sarayının əhəmiyyətli cəhəti odur ki, bu binada müxtəlif sənət nümunələri toplanmışdır. Suvaq üzərindəki rəngli naxışlar, şəbəkələrdən ibarət ağac oyma nümunələri, salon və otaqlardakı divar təsvirləri qiymətli sənət əsərləridir.

XVIII əsrin axırlarında, xüsusilə XIX əsrin əvvəllərində Azərbaycanda daha çox yaşayış binalarının tikilməsinə xüsusi diqqət verilmişdir. Bu dövrdə istər təbii şərait, istərsə də yerli adət və ənənələr, təsərrüfat xüsusiyyətləri nəzərə alınaraq inşa olunmuş və bu günə kimi gəlib çatmış yüzlərlə qiymətli abidələrimiz vardır.

Bu yazıda qısaca bəhs etdiyimiz dəyərli tarix və mədəniyyət abidələri xalqımızın zəngin keçmişinin, onun yaradıcılıq qabiliyyətinin bariz nümunələridir.

Tarixi-mədəniyyət abidələrinə nəzər saldıqda tarixin ağlı-qaralı səhifələrini görür, bərkə-boşa düşmüş xalqımızın həyat salnaməsini oxuyuruq. Abidələr keçmişin qaranlıqlarına işıq saçır, onun nurlu şüaları altında bütöv bəşəriyyəti görürük, keçmiş mədəniyyətlə müasir mədəniyyət arasındakı xüsusiyyətləri öyrənir, onları əlaqələndiririk.

Ona görə də tarixi-mədəniyyət abidələrinin qorunub bərpa edilməsi hər bir vətəndaşın ümdə vəzifəsi olmalıdır. Necə ki, bu məsələ dövlətimizin, dövlət xadimlərimizin həmişə diqqət mərkəzində olmuşdur.

## Kitabxanalarda tarix və mədəniyyət abidələrinin təbliği ilə bağlı keçiriləcək tədbirlər

Tarixi-mədəniyyət abidələri zaman deməkdir. Babaların, nənələrin ötən əsrlərdən zəmanəmizə çatan sözünü-söhbətini, izini, yurdunu, ocağını bu qədim tikililərdə, onların sevgi və məhəbbətini bu abidələrə vurduqları naxış və bəzəklərdə, qürur və əzəmətlərini, döyüş nərələrini ucaltdıqları qala və bürclərdə, inam və etiqadlarını yadigar qoyduqları məscid və türbələrdə görürük. Bu abidələrdə ülvi duyğular, hisslər, bəşər tarixini zənginləşdirən bütün amillər əbədiləşib, nağıllaşıb.

Bəzən yanından biganə keçdiyimiz uçuq-sökük abidə bir tarixdir, bir həyatdır, Qorqud Dədənin telli qopuzunun səsidir, azadlıq uğrunda döyüşən qəhrəmanların torpağa hopmuş qan yaddaşıdır, işğalçı niyyətlə vətənimizə ayaq basmış düşmənin arxasınca atılmış nifrət daşıdır. Çünki abidələr tarixin şahididir.

Öz tarixini, keçmişini öyrənməyən, qədim abidələrin hər bir xalqın vizit kartı olduğunu bilməyən insanlar, əsasən də gənclər onların qədrini də bilməz. Keçmişdən yadigar qalan abidələri qoruyub saxlamaq, öyrənmək və təbliğ etmək, xüsusən də gənclərdə milli sərvətimizə hörmət və ehtiram hissini tərbiyə etmək hər bir azərbaycanlının borcu və vəzifəsidir. Xain düşmənlərimiz ermənilərin canfəşanlıqla dağıdıb talan etdikləri, bir çoxunu öz adlarına çıxararaq mənimsəmək istədikləri tariximizə, keçmişimizə və bu günümüzə məhz yetişməkdə olan gənc nəsil sahib çıxmalıdır.

Bu işdə əsas fəallıq şəhər və rayon icra strukturlarının, Mədəniyyət və Turizm şöbələrinin, MKS-lərin, Tarix-diyarşünaslıq muzeylərinin və tədris müəssisələrinin üzərinə

düşür. Hazırda bu çox vacib bir problemdir. Çünki demək olar ki, uzun illər ərzində bu məsələyə yetərincə fikir verilməmiş, əksinə tarixi-mədəniyyət abidələrinə laqeyd münasibət nəticəsində keçmişimizin bir çox yadigarları qiymətli sənət əsərləri uçub-dağılmışdır.

Ulu öndərimiz, ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə gəlişi ilə tarixi və mədəniyyət abidələrinə münasibət tamamilə dəyişdi. Bu böyük şəxsiyyət tarixi abidələrimizə laqeyd münasibətin qarşısını almaq məqsədilə 10 aprel 1998-ci ildə "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanun və həmin qanunun tədbiq edilməsi barədə Fərman (13 iyun 1998) imzaladı. 8 fəsildən ibarət olan bu Qanunda tarix və mədəniyyət abidələrinin təsnifatı, qorunub mühafizə edilməsi və beynəlxalq hüquqi aktlar öz əksini tapmışdır.

İndi hər il ölkəmizdə 18 Aprel "Abidələrin Beynəlxalq Mühafizə Günü" kimi dövlət tərəfindən qeyd edilir ki, bu da tarixi abidələrə diqqətin bariz nümunəsidir.

Bu günün qeyd olunması hər bir rayon mədəni-maarif müəssisələri, tarix-diyarşünaslıq muzeyləri, xüsusən də kitabxanaların qarşısında mühüm vəzifələr qoyur. Hər bir xalqın bu gününə və sabahına münasibəti onun öz tarixinə, keçmişinə münasibəti ilə ölçülür. Gənclərdə, orta və aşağı sinif şagirdlərində, tələbələrdə bu hissi tərbiyə etmək, onlarda vətənpərvərlik duyğularını oyatmaq işində kitabxanalar çox işlər görə bilərlər.

Çünki kitabxanalar oxucularla, bilavasitə gənc nəsillə daim əlaqədədir və onlara öz xalqının tarixini, keçmişini, mədəni irsimizin qədim yadigarları olan abidələrimizi öyrənməkdə köməklik etmək əsas vəzifələrdən biridir.

Bu işdə onlar mədəni-kütləvi tədbirlərin müxtəlif növlərindən istifadə edərək oxucu konfransları, mühazirə, kitab təqdimatları, sual-cavab və ədəbi-bədii gecələr keçirə bilərlər. Foto-stendlərin, kitab sərgilərinin təşkili də çox yerinə düşər. Bu tədbirlərin hər biri abidələrin təbliği sahəsində əhəmiyyətli və vacib vəzifəni yerinə yetirir.

Təəssüf ki, abidələrimiz haqqında az yazılıb, bu mövzunun əhəmiyyəti hələ istənilən səviyyədə öyrənilməyib. Ona görə də kitabxanalar “18 Aprel Abidələrin Beynəlxalq Mühafizə Günü” ilə bağlı tədbirlərə çox məsuliyyətli yanaşmalı, ciddi hazırlaşmalıdırlar.

Nəzərə alsaq ki, tarixi-mədəniyyət abidələrinin mühafizəsi, öyrənilməsi dövlətimiz tərəfindən qlobal şəkildə həyata keçirilir, MKS-lər ilk növbədə öz fondlarının bu mövzu ilə bağlı ədəbiyyatla komplektləşdirməsinə ciddi fikir verməlidirlər. Çalışmalıdırlar ki, kitabxananın kataloq və kartotekalarında abidələrimizə aid ədəbiyyat ayrıca başlıq altında toplansın, rubrikalar açılsın. Diyarşünaslıq kataloq və kartotekalarında “Azərbaycanın tarix və mədəniyyət abidələri”, “Qarabağ abidələri”, “Naxçıvan abidələri” “Qərbi Azərbaycan abidələri” adlı ayrıcların açılması məsləhətdir. Kataloq və kartotekalarda toplanmış ədəbiyyat artdıqca həmin başlıqlar altında “Qalalar”, “İçərişəhər”, “Möminə Xatun türbəsi”, “Şəki xan sarayı”, “Ziyarətgahlarımız”, “İşğal altında olan abidələrimiz” adlı yarımbaşlıq açıla bilər. Bu yarımbaşlıqlar altında toplanmış ədəbiyyat oxucuya konkret mövzu ilə bağlı ədəbiyyatı daha tez tapmağa imkan yaradar. Maraqlananlara Azərbaycan ərazisindəki tarixi-mədəniyyət abidələri – ziyarətgahlar, məscid və məbədlər, tarixin yadigarı qalalar, möhtəşəm saraylar haqqında zəngin məlumat verər.

Son dövrdə kitabxanalarda xalqımızın ağır faciəsi olan Dağlıq Qarabağ, işğal altında olan digər torpaqlarımız və Qərbi Azərbaycan mövzuları çox aktual və oxucular tərəfindən istənilən mövzudur. Oxucuları maraqlandıran bu mövzuda ədəbiyyat çox ciddi şəkildə toplanmalı və diyarşünaslıq kataloq və kartotekalarında öz əksini tapmalıdır. Kataloq və kartotekalarda Qarabağda və işğal altında olan digər torpaqlarımızda qalan, Qərbi Azərbaycan abidələri mövzusunda ayrıcların, rubrikaların açılması vacibdir.

Kitabxanaların tarixi abıdələrlə bağlı keçirdiyi tədbirlərdən biri də kitab sərgilərinin təşkilidir. Kitab sərgiləri geniş oxucu kütləsini əhatə edir, onların mütaliəsinə müsbət təsir göstərir və əyani təbliğat vasitəsi olaraq nəyi oxumağı tövsiyə edir. Yuxarıda qeyd etdiyimiz kimi, abidələr haqqında ədəbiyyat kitabxanalarda az ola bilər. Ona görə də kitablarla bərabər, jurnal, qəzet materiallarından da istifadə etmək lazımdır.

Oxucuları tədbirə cəlb etmək məqsədilə sərginin başlığı iri hərflərlə, cəlbedici yazılmalıdır. Sərginin maraqlı, təsirli keçməsi üçün illüstrasiyalardan, foto-stendlərdən, abidələrin rəngli şəkillərindən, sitatlardan istifadə etmək çox yerinə düşər. “Yurdun ulu daşları”, “Tikdim ki izim qala”, “Abidələr milli sərvətimizdir”, “Yurddaşı, yurd yaddaşı”, “Güllələnmiş abidələr” və s. başlıqlar sərginin mövzusunun tam açılmasına köməklik edər. Kitab sərgilərinin geniş və əhatəli olması üçün kitabxanaların imkanları, fondunda olan ədəbiyyatın mövzuya uyğunluğu nəzərə alınaraq, sərgi bir neçə bölmədə təşkil oluna bilər. Məsələn: Başlıq: “18 Aprel Abidələrin Beynəlxalq Mühafizə Günüdür”. Bu başlıq altında kitabxanada olan ədəbiyyatı aşağıdakı yarımbaşlıqlarda: “Pirlər-inam yerimizdir”, “Qalalar-tariximizdir”, “Bakının incisi – İçərişəhər”, “Qarabağda qalan izimiz” toplamaq olar.

Kitabxanaçılar sərgilərin hazırlanmasında: başlıqların yazılmasında, foto-stendlərin, illüstrasiyaların tərtibatında məktəblilərin qüvvəsindən tam istifadə etməyə çalışmalıdırlar. Onlar işi elə qurmalıdırlar ki, əsas diqqət tarixi-mədəniyyət abidələrinin öyrənilməsinə, qorunmasına və təbliğinə verilsin, gənc nəslin vətənpərvər, milli ruhda tərbiyə edilməsinə, vətənin hər qarış torpağına, daşına hörmət hisslərinin aşılanmasına yönəlsin.

MKS-lər tarixi-mədəniyyət abidələri mövzusu ilə bağlı ədəbiyyat seçməkdə şəhər, rayon və kənd kitabxanalarına kömək məqsədilə “Rayonumuz və kəndimiz haqqında nə oxumalı” adlı kitab siyahıları da hazırlaya bilərlər. Bu siyahılarda müvafiq yerin

tarixi-mədəniyyət abidələri ayrısa qeyd olunsa çox məqsədəuyğun olar, kitabxanaların mövzu üzrə keçirəsəkləri tədbirə hazırlaşmalarını asanlaşdırar.

Kitabxanaçılar İnternetdə də axtarışlar aparıb informasiya toplamağa çalışmalı, mövzu ilə əlaqədar saytlardan da məlumat almaq imkanlarından istifadə etməlidirlər.

Son zamanlar kitabxanalarda hər hansı bir aktual mövzu ilə bağlı oxucu konfransları, kitab təqdimatları və müzakirələri keçirmək geniş vüsət almışdır. Mədəni-kütləvi tədbirin ən geniş yayılmış bu üsulu oxuculara, yuxarı və orta sinif şagirdlərinə çox maraqlı və xeyirli olar. Tarixi-mədəniyyət abidələrinə həsr edilmiş konfrans və müzakirələrdə oxucu abidələr haqqında geniş məlumat alar, onu maraqlandıran bütün suallara cavab tapa bilər.

Kitabxanalar "18 Aprel Abidələrin Beynəlxalq Mühafizə Günüdür" mövzusunda keçirəcəyi geniş oxucu konfransına, kitab müzakirəsinə və söhbətlərə çox məsuliyyətlə yanaşmalıdırlar. Konfransa 1-2 ay əvvəldən hazırlaşmaq lazımdır. Kitabxanaçı konfransın planını tutmalı, məruzəçini və çıxış edəcək şəxsləri seçməli, onlara lazım olan təlimatları verib, hazırlaşmaq üçün ədəbiyyatla təmin etməlidir. Belə geniş konfranslarda məruzəçi mütəxəssis və ya tarix müəllimi olsa daha yaxşı olar, yox əgər məruzəçi kitabxanaçı özüdürsə, o, öz üzərində ciddi çalışmalı, işıqlandıracağı mövzunu hərtərəfli öyrənməlidir. Çünki ola bilər ki, iştirakçılardan kimsə sual vermək, hansısa məlumatı dəqiqləşdirmək istəsin. Məhz buna görə də məruzəçi hazırlıqlı olmalı, sualları cavablandıra bilməlidir. Aşağıda keçiriləcək konfransın təxmini planını veririk:

1. Giriş sözü (aparıcı-kitabxanaçı və ya dəvət olunmuş məsul işçi, giriş sözündə qısaca olaraq keçirilən tədbirin məqsədindən, əhəmiyyətindən söhbət açır);
2. Məruzə (mövzu faktlara, dəlillərə əsaslanaraq tam əhatə olunmalı, məruzəçi səlist və aydın dildə danışmalıdır);

3. Çıxışlar (çıxışlar üçün vaxt müəyyən edilməlidir ki, hər çıxış edən şəxs mövzu ətrafında öz fikrini qısa və konkret olaraq söyləyə bilsin, təkrara yol verməsin);
4. Yekun (aparıcı tədbirə yekun vurur, iştirakçılara kitabxana adından öz minnətdarlığını bildirir).

Belə geniş oxucu konfransı, kitab müzakirəsi və söhbətlər keçirdikdə elə başlıqlar seçmək lazımdır ki, oxucuları cəlb edə bilsin, keçiriləcək tədbirin tam məzmunu açılsın. Məs: "İşğalda qalan abidələrimiz", "Tarixi abidələr sərvətimizdir", "Abidələrə vurulan yara tariximizə vurulur", "Bakının incisi – İçərişəhər", "Azərbaycanın Qız qalaları" "Tarixi abidələri yaşadaq, tanıyaq və tanıdaq", "Xalq öz tarixi-mədəniyyət abidələri ilə ölməzdir" və s.

Tədbir keçirilən otaqda kitab sərgisi, foto-stendlər təşkil edilsə, üllustrasiyalar asılsa çox yaxşı olar. Şagirdlərin abidələrdən bəhs edən rəsm əsərlərinin nümayişi isə tədbiri daha da təsirli edər.

Kitabxanalar belə tədbirləri tarix-diyarşünaslıq muzeylərində, mövcud abidə komplekslərinin ərazisində də keçirə bilərlər. Bu zaman tədbir iştirakçıları bilavasitə xalqımızın tarixi keçmişi ilə bağlı maddi mədəniyyət nümunələri ilə tanış olar, mədəni irsimizin necə qorunub saxlandığının canlı şahidi olarlar.

"18 Aprel Abidələrin Beynəlxalq Mühafizə Günü" ilə bağlı tədbirin sonunda "Abidələrimiz rəvayət, əfsanə və dastanlarda" və ya "Abidələrimiz və şifahi xalq nümunələri" mövzusunda ədəbi-bədii gecə də keçirmək olar. Belə mərasimlərdə yerli folklor ansamblları çıxış edə bilər, yerli teatr kollektivləri qəhrəmanlıq, vətənpərvərlik, xarici düşmənlərə qarşı mübarizəyə həsr olunmuş əsərlərdən parçalar göstərə bilərlər.

Bu ədəbi-bədii gecələr şəhərdə, rayonda və yaxud kənddə olan hər hansı bir abidənin ərazisində, açıq havada keçirilsə daha çox marağa səbəb olar, çoxlu iştirakçı yığar. Tarixi yerlər, abidələrlə bağlı yazılı və şifahi ədəbiyyatımızda yaşayan

müxtəlif hekayələrin, rəvayətlərin tamaşaçılara çatdırılması, abidələrə marağı daha da artırar.

Əgər gənc nəsil öz kəndlərində, şəhərlərində yerləşən tarixi abidənin neçə-neçə düşmən ordusunun hücumuna məruz qaldığını, ulu babaların onu qanları, canları bahasına bu günə kimi qoruyub saxladığını bilərsə, bu abidələrin bir daşı belə qopub düşə bilməz, onların qoruyucuları elə məhz bu cavanlar olarlar.

Kitabxanalar oxucular, orta və yuxarı sinif şagirdləri arasında öz ərazilərində olan abidələr haqqında folklor materiallarını toplayanların müsabiqəsini də keçirə bilərlər. Bu barədə kitabxananın foyesində elan asılmalı və orada şərtlər geniş şəkildə əks olunmalıdır. Müsabiqə iştirakçılarını həvəsləndirmək məqsədilə kiçik mükafatlar təsis olunarsa daha maraqlı olar, daha çox gənc iştirak etmək istəyər.

Orta və yuxarı sinif oxucularının iştirakı ilə diyarşünaslıq, tarixi-mədəniyyət abidələri həvəskarları klubları və dərnəkləri də yaratmaq olar. Həmin klub və dərnəklər tarix və mədəni abidələrinin tarixini öyrənmək və təbliğ etməklə yanaşı, abidələri qorumaq məqsədilə onları hamiliyə də götürə bilər, abidənin ətrafında səliqə-səhman işlərinə nəzarət edər, yaşıllıqlar salıb, gül-çiçək əkərlər.

Bu klub və dərnəklərdə tarixi-mədəni irsimizi oxuculara, xüsusən də gənclərə yaxından tanıtmaq məqsədilə maraqlı mühazirə və söhbətlərin təşkili yerinə düşər. Tədbirlərə tarixçiləri, mütəxəssisləri, abidə mühafizəçilərini və mütləq yaşlı nəslin nümayəndələrini dəvət etmək məqsədəuyğundur. Əgər alimlər bu mövzunu tarixi baxımdan işıqlandırırlarsa, nənə və babalarımız xalqımızın ulu tarixindən, ötən günlərdən söhbət açar, yeri düşdükcə elimizdə, obamızda izini qoymuş adət-ənənələrdən, sözlü-sirli abidələrimizdən gənc nəslə məlumat verərlər. Son illər belə tədbirlərin keçirilməsinə və gənc nəslin tarixi keçmişimizə, mədəni sərvətlərimizə aid söhbətləri dinləməsinə böyük ehtiyac vardır.

## İşğal altında qalan və Qərbi Azərbaycan abidələrinin təbliği ilə bağlı kitabxanalarda keçirilən tədbirlər

Kitabxanalarda tarixi və mədəni irsimizin öyrənilməsi və qorunması ilə bağlı tədbirlərdə Dağlıq Qarabağda, işğal altında olan ərazilərdə qalan və Qərbi Azərbaycan (Ermənistan) abidələrinin öyrənilməsinə və təbliğ edildməsinə xüsusi diqqət vermək lazımdır. Çünki hamımız yaxşı bilirik ki, vəhşi işğalçılar abidələrimizə, bizim tariximizlə, mədəniyyətimizlə bağlı yerlərə necə divan tuturlar. Bu abidləri yer üzündən silməklə, keçmişimizi, yaddaşımızı silməyə çalışırlar.

Bildiyimiz kimi, Azərbaycan torpaqları 1828-ci ildə "Türkmənçay" müqaviləsi ilə Rusiya və Iran arasında bölüşdürüldükdən sonra çar Rusiyası mərhələli şəkildə ermənilərin bu ərazilərdə məskunlaşmasına imkan yaratdı. Özlərinə yer eyləyən ermənilər illər uzunu öz murdar niyyətlərini həyata keçirməyə başladılar. Onlar Azərbaycan torpaqlarını işğal etməklə, tarixi-mədəni irsimizi, adət-ənənələrimizi, musiqimizi və incəsənətimizi özününküləşdirməyə cəhd edir, qədim tarixə malik olduqlarını bu yolla sübut etməyə çalışırlar. Məkrli niyyətlərinə nail ola bilmədikdə isə tarixi-mədəniyyət abidələrini, məscidləri, qəbiristanlıqları vəhşicəsinə dağıdır, yer üzündən silirlər.

Qərbi Azərbaycan indiki Ermənistan torpaqlarında 1913-1918-ci illərdə Irəvan şəhərində Sərdar sarayı kompleksi, çoxsaylı karvansaralar, hamamlar, türbələr dağıdılmışdır. Şah Ismayıl Xətainin öz vəziri Rəvanqulu xana tikdirdiyi Irəvan qalası, o cümlədən 1870-dən çox Azərbaycan-türk mənşəli tarix və mədəniyyət abidələri, bir o qədər də qədim və orta əsrlərə aid qəbiristanlıq, heykəllər, incəsənət nümunələri tamamilə məhv

edilmişdir. O illərdə Irəvan qəzasında 42, Eçmiədzin qəzasında 33, Zəngəzur qəzasında 35 məscid talan edilərək yandırılmışdır.

Dağlıq Qarabağ və işğal olunmuş ərazilərdə 464 tarixi, memarlıq və mədəniyyət abidəsi, 100 mindən artıq əşyanın toplandığı 808 klub müəssisəsi, 85 musiqi məktəbi, 5640 musiqi aləti, 22 muzey və 4 şəkil qalereyası, 9 tarixi əhəmiyyətli saray, 18 məscid, 927 kitabxana və onların fondunda olan 4 milyon 600 min kitab yandırılıb, məhv edilmişdir. Şuşa və Laçın rayonlarının hər birində 200-ə yaxın memarlıq abidəsi, Cəbrayılda 132 tarixi abidə, Ağdam, Zəngilan, Qubadlı, Kəlbəcər və Füzuli rayonlarında yüzlərlə tarixi, memarlıq və mədəniyyət abidələri, on minlərlə eksponatı olan muzeylər düşmən əlinə keçərək viran edilmişdir, Şuşada XVIII əsrə aid Gövhər Ağa məscidi, Hacı Abbas məscidi və karvansaray, Hacı Yusifli məscidi, Cəbrayılda V və VII əsrlərə aid səkkizguşəli türbə, XVIII əsrə aid Sultanməcid hamamı, Zəngilanda XII əsrə aid Qız qalası, XIV əsrə aid səkkizguşəli türbə, Laçında XIV əsrə aid Məlikəjdər Türbəsi, Ağdamda dünyada ikinci olan Çörək Muzeyi, eramızdan əvvəl V əsrə aid Çalaqtəpə yaşayış məskəni, Qubadlıda IV əsrə aid Gavur dərəsi, V əsrə aid Qalalı və Keyqala abidələri, Kəlbəcərdə XIII-XVIII əsrlərə aid Xotavənd məbədi, Füzulidə 1682-ci ildə tikilmiş Qiyasəddin məscidi, 1684-cü ildə tikilmiş Qarğabazar karvansarayı və digər tarixi memarlıq abidələrimiz erməni vandalizminə məruz qalmışdır.

Son illərin münaqişələri nəticəsində ermənilərin abidələrimizə, milli mədəniyyətimizə qarşı etdikləri vəhşiliklər ağlasığılmaz hüduda çatmışdır.

Kitabxanalar bu mövzuya məsuliyyətlə yanaşmalı, müxtəlif təbliğat vasitələrindən istifadə edərək, bu ağrılı mövzunu diqqətdə saxlamalı, mütəmadi olaraq bu faktlarla gənc nəsli tanış etməli, mədəni irsimizin yaddan çıxmamasına çalışmalıdırlar.

Kitabxanalar qaçqınların və məcburi köçkünlərin məskunlaşdığı şəhər və rayonlarda öz yurdlarında doğulmuş, hal-hazırda qaçqın və köçkün halında yaşayan bu insanlara mənəvi

dayaq olmalı, onların itirdikləri torpaqlara, o torpaqlarda qalmış abidələrə hörmətlə yanaşmalıdırlar. Kitabxanaçılar yeni nəslə əsirlikdə qalan tarixin yaddaşı abidələrin bir gün belə hafizələrdən silinməməsinə yardımçı olmalı, bu işdə mədəni-kütləvi tədbirlərin müxtəlif üsullarından istifadə etməlidirlər.

Xalqımız hər il «18 Aprel Abidələrin Beynəlxalq Mühafizə Günü»nü və işğal olunmuş rayonların işğal gününü anım mərasimləri ilə qeyd edir. Kitabxanalar bu mərasimlər ilə bağlı keçirdikləri tədbirlərdə mütləq əsirlikdə qalmış abidələri qeyd etməli, nəzərə çatdırmalıdırlar.

Qaçqın və məcburi köçkünlərin məskunlaşdığı şəhər və rayonların MKS-də işğal olunmuş şəhər və rayonların, eləcə də Qərbi Azərbaycanın ayrıca guşəsi yaradılsa çox yaxşı olar. Bu guşədə Azərbaycanın xəritəsinin asılması, xəritədə isə işğal olunmuş ərazilərin müəyyən nişanlarla göstərilməsi oxucular üçün maraqlı olar. Işğal olunmuş şəhər və rayonun işğaldan əvvəlki vəziyyətini əks etdirən şəkillərdən ibarət fotosərgi orta və yuxarı sinif şagirdlərinin yaddaşında doğma yurdları haqqında xatirələri qoruyub saxlayar, onlara təsəlli olar. Əgər bu fotoşəkillərlə yanaşı erməni separatçılarının talan edib, viran qoyduqları el-obamızın şəkilləri asılsa, gənc nəsildə zalım düşmənimizə qarşı nifrət hissi daha da artar, ermənilərin etdikləri vəhşiliklər göz önündə canlanar. Bu guşədə erməni vandalizminə məruz qalmış mədəni irsimiz, tarixi abidələrimiz haqqında məlumat verən yazılar, rəqəm göstəriciləri də verilə bilər. Guşədə “Tarixin qan yaddaşı” adlı stendin də hazırlanması yerinə düşər. Burada işğal olunmuş hər bir şəhər, rayon və həmin yerlərdə qalan abidələr haqqında ayrıca geniş məlumat vermək lazımdır. Stendin məktəblilər tərəfindən hazırlanması daha əhəmiyyətli olar.

Belə ki, orta və aşağı sinif şagirdləri ərazilərimizin işğalı ilə bağlı həqiqətlərlə bilvasitə tanış olar, erməni vəhşiliyi onlarda nifrət hissi oyadar.

“Unutmayaq ki, unudulmayaq!”, “Abidələrimizi məhv edə bilərlər, yaddaşımızı isə yox”, “Əsir yurdun tarixi abidələri”,

“Keçmişsiz gələcək yoxdur”, “Tarix abidələrdə yaşayır” adlı söhbətlər və məruzələr keçirmək çox vacibdir. Bu tədbirlərə məktəbliləri, böyüməkdə olan gənc nəsli cəlb etmək vacibdir, çünki öz yer-yurdlarından didərgin düşmüş uşaqların çoxunun nəinki öz abidələri haqqında təsəvvürləri belə yoxdur, öz şəhərlərini və rayonlarını artıq xatırlamır, yaşadıqları yerləri unutmağa başlayıblar və belə söhbətlər onların yaddaşında öz yurdları haqqında xatirələri qoruyub-saxlamağa kömək olar, vətənpərvərlik duyğularını oyadar, xalqının zəngin mədəni irsi ilə tanış edər.

“Qərbi Azərbaycan məscidləri”, “Kəlbəcərin daş heykəlləri”, “Xocavəndin alban məbədləri”, “Düşmən tapdağı altında qalan ziyarətgahlar” adlı konkret mövzulara həsr edilmiş oxucu konfransları da mədəni irsimizin tarixini öyrənməkdə çox əhəmiyyətli və lazımlıdır.

Kitabxanaçılar belə konfrans, məruzə və söhbətlərə ciddi hazırlaşmalı, tədbiri keçirəcək yeri, çıxış edəcək şəxsləri və dəvət olunacaq qonaqları qabaqcadan müəyyənləşdirməli, müvafiq şəhər və rayonun abidələrinə dair ədəbiyyatı toplayaraq hazırlaşmaq üçün məruzəçiyə verməlidir. Tədbirin səmərəli keçməsində mühazirəçinin rolu çox böyükdür. Ona görə də məruzəçi, mütəxəssis, tarix müəllimi, muzey işçisi olsa yaxşı olar.

Mühazirəçi öz çıxışında keçmişə qayıtmalı, azərbaycanlıların hansı səbəblərdən öz dədə-baba yurdlarından didərgin salındıqlarından, erməni separatçılarının “Böyük Ermənistan” yaratmaq xülyalarından, bu istəklərinə çatmaq üçün xalqımıza qarşı törətdikləri vəhşiliklərdən geniş söhbət açmalı, bu ərazilərdə qalan tarixi abidələrimizdən bəhs etməlidir.

Bu mövzu ilə bağlı oxucu konfransının keçirilməsinin əhəmiyyəti çox böyükdür. Məktəblilər, gənc nəsil bu tədbir sayəsində xalqımızın tarixi olan abidələr haqqında geniş məlumat əldə edə bilərlər. Onların yaranma tarixi, əsrlər boyu keçdikləri çətin yolun bir çox məqamları ilə tanış olarlar. Belə geniş oxucu konfransı və mühazirələrdə qədim Azərbaycan torpaqlarının tarixi

keçmişini öyrənirlər. Buna sübut oralarda qalan tarix və mədəniyyət abidələrimizdir. Düşmənlər öz vəhşi hərəkətləri ilə o abidələri yer üzərindən silə bilərlər, yaddaşımızdan isə heç vaxt silə bilməzlər. Biz hamımız çalışmalıyıq ki, gənc nəsil bunu başa düşsün, dərk etsin ki, keçmişsiz gələcək yoxdur. Abidələr bizim tariximizdir, mədəniyyətimizdir, ata-babalarımızın bizə yadigarıdır. İndi uşaqlarımızı düşmənə qarşı nifrət hissi ilə böyütməliyik, ermənilərin millətimizə qarşı etdikləri haqsızlıq və vəhşilikləri dəlil və faktlarla nəzərə çatdırmalıyıq.

Son dövrlərdə mədəni-kütləvi tədbirlərdən tez-tez istifadə olunan kitab təqdimatlarının, yeni kitabların müzakirələrinin də əhəmiyyəti böyükdür. Kitabxanalarda Ə.Ələkbərlinin "Qərbi Azərbaycan abidələri", "Qədim Türk-Oğuz yurdu", H.Mirzəyevin "Qərbi Azərbaycanın Dərələyəz mahalı", "Müharibə və tarixi-mədəniyyət abidələrimiz", Çingiz Qacarın rus dilində nəşr edilmiş "Staraya Şuşa" kitablarının təqdimatı, bu kitabların müzakirələrinin keçirilməsi indiki zamanda çox yerinə düşər. Bu tədbirlərdə iştirak edən oxucular, gənc nəslin nümayəndələri çıxış edənlərdən çox şey öyrənə bilər, onları maraqlandıran suallara cavab tapar, bir daha o yerlərə səyahət etmiş olarlar.

Kitabxanaçıların tədbirdə erməni vandalizminə məruz qalmış mədəni irsimiz haqqında məlumat verən yazının da divardan asmaları çox məqsədəuyğun olar. Bu məlumatda kitabxanaçılar yuxarıda göstərdiyimiz rəqəm göstəricilərindən də istifadə edə bilərlər.

İşğal nəticəsində dağıdılmış abidələrimizin, şəhər və kəndlərimizin şəkillərindən ibarət foto-stendlər, illüstrasiyalar düşmənin xain niyyətini göz önündə canlandırmağa kömək edər.

Kitabxanaçılar oxucu konfranslarında, kitab müzakirələrində, kitab təqdimatlarında, mühazirə və söhbətlərdə mütləq mədəni irsin qorunması ilə bağlı qəbul edilmiş beynəlxalq hüquqi aktlar, konvensiyalar barədə oxuculara məlumat verməlidirlər. Onlar "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası

(Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 1993-cü il tarixində qəbul edilmişdir), “Arxeoloji abidələrin mühafizəsi haqqında” 1992-ci il Avropa Konvensiyası, “Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında” 1970-ci il Paris Konvensiyası (30 sentyabr 1997-ci il tarixində Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmişdir), “Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında” YUNESKO-nun 1972-ci il Paris Konvensiyasını (Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 16 dekabr 1993-cü il tarixində qəbul edilmişdir), “Arxeoloji irsin mühafizəsi haqqında” Avropa Konvensiyasını (Azərbaycan Respublikası tərəfindən 20 oktyabr 1999-cu il tarixli qanunu ilə qüvvəyə minmişdir) yada salmalı və beynəlxalq konvensiyalara Azərbaycanın əməl etməsini, Ermənistanın isə bu qanunları kobudcasına pozmasını diqqətə çatdırmalıdırlar. Gənc nəsil bilməlidir ki, bu faciənin səbəbkarı olan ermənilər torpaqlarımızı darmadağın ediblər. Bütün beynəlxalq ictimaiyyətin səylərinə, Azərbaycanın sülhsevər niyyətinə baxmayaraq, təcavüzkarlar bu gün də öz quldur siyasətlərini davam etdirirlər.

Tədbirlərin sonunda “Müqəddəs torpaq”, “Fəryad”, “Ağ atlı oğlan”, “Ümid” filmlərinin göstərilməsi şagirdlərin düşmənə nifrət hissini daha da gücləndirər. Aşağı sinif şagirdləri üçün isə milli qəhrəmanlarımızdan bəhs edən “Koroğlu”, “Qatır Məmməd”, “Babək” filmlərinə baxmaq çox maraqlı olar, eyni zamanda qəhrəmanlara həmişə arxa olan əyilməz qalalarımızla da tanış olarlar. Belə filmlər cavan və yeniyetmələrdə döyüş hisslərini coşdurar, öz torpaqlarının düşmən tapdağından qurtarmaq arzuları baş qaldırar. O torpaqlar azad edilməsə, abidələrimiz də heç vaxt azad olmayacaqdır.

Orta və aşağı sinif şagirdləri arasında “Qalalar, əyilməz qürurumuzdur”, “Bu mənim şəhərimdir”, “Bizim küçə”, “Məscidlərimiz, inam yerimiz” adlı rəsm əsərlərindən ibarət

sərginin təşkili tədbirə marağı artırar, şagirdlərin öz elinə, torpağına və yadigar qalmış abidələrinə məhəbbət hissini aşılamış olar. Bu sərgilər müsabiqə kimi təşkil oluna və qaliblər kiçik hədiyyələrlə mükafatlandırıla bilərlər. Bu isə gələcəkdə keçiriləcək belə tədbirlərdə uşaqların həvəslə iştirak etməsinə şərait yaratmış olacaqdır.

Abidələrlə bağlı tədbirlərə torpaqları işğal altında olan müvafiq şəhər və rayonun yaşlı nümayəndələrini dəvət etmək lazımdır. Sinəsi sözlü-nəğməli nənələrin və el-obalarının hər daşının, tikilisinin tarixini əzbər bilən babaların iştirakı çox yerinə düşər. O yerlərdə qalan hər hansı bir qala, abidə haqqında əfsanəni, rəvayəti, söhbəti öz baba-nənələrinin dilindən eşitməyin təsir gücü məktəblilər üçün olduqca böyükdür. Bu eyni zamanda yaşlılarımızın öz tarixinə, keçmişinə nə qədər bağlı olduqlarına bir daha sübutdur.

Belə mərasimlərdə orta və kiçik yaşlı şagirdlər arasında sual-cavab gecələri də keçirtmək mümkündür. Belə sual-cavab gecələrinin təxmini sualları:

1. Qərbi Azərbaycan haradadır?
2. Azərbaycanın neçə şəhər və rayonu ermənilər tərəfindən işğal olunub?
3. Qədim tarix və mədəniyyət abidələri nə deməkdir?
4. Azərbaycanda hansı dünya əhəmiyyətli abidələri tanıyırsınız?
5. Ərk qalası harada yerləşir?
6. Möminə Xatun türbəsi neçənci əsrə aiddir?
7. Qalaları tikməkdə məqsəd nə idi?
8. Şuşa şəhərində hansı abidələr var?
9. Azərbaycanda alban abidələri nəyi sübut edir?
